**AZƏRBAYCAN RESPUBLİKASI**

Əlyazması hüququnda

# XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA YAŞLILARIN TƏHSİLİ

İxtisas: 5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Afaq Bəxtiyar qızı Nəsibova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2021**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqoji elmlər doktoru, professor
**Ellada Musa qızı Quliyeva**

Rəsmi opponentlər: Pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim
**Rüfət Lətif oğlu Hüseynzadə**
Pedaqogika üzrə elmlər doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Sərdar qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Tarix üzrə elmlər doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlişah qızı Zamanova**

Elmi seminarın sədri: Pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə Azərbaycanda iqtisadi, siyasi, mədəni və sosial şəraitdə baş verən dəyişikliklər "ömür boyu təhsil" ideyası ilə bağlı olan yaşlıların təhsilinin də xüsusi aktuallıq kəsb etməsini və onun inkişaf tarixinin tədqiq edilməsini zərurətə çevirmişdir.

"*Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri, xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır*"[1]. Ulu öndər H.Ə.Əliyevin zamanında səsləndirmiş olduğu bu dəyərli fikirlər bir çox gənc tədqiqatçıların qarşısına qoyulmuş bir məqsəd olaraq, onları Azərbaycanın təhsil tarixinin müxtəlif problemlərini araşdırmağa sövq etmişdir.

Ümummilli lider H.Ə.Əliyev təhsilin bütün sahələrinə xüsusi qayğı və diqqətlə yanaşırdı. Respublikamızda yaşlıların təhsili, əlavə təhsil, ixtisasartırma və kadr hazırlığı sahələri də onun diqqətindən kənarda qalmamışdır. Müasir texnika və texnologiyaların inkişaf etdiyi bir dövrdə Sovet təhsili almış yaşlıların bu inkişafdan kənarda qalmasını ədalətsizlik hesab edən Ulu öndər yaşından, mənsubiyyətindən, dinindən asılı olmayaraq hər bir şəxsin təhsil almaq hüququnun olduğunu vurğulayırdı. Onun fikrincə heç kim təhsildən kənarda qala bilməz, elm öyrənməyin yaşı yoxdur, elmə, savada yiyələnmək heç bir zaman gec deyildir.

Elm və təhsilin inkişaf etdiyi, yaşlıların təhsilinin "XXI əsrin açarı" adlandırıldığı bir dövrdə bu cür prioritet bir məsələ, təhsil

---

[1] Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı, 2002, s. 18.

tarixində onun yeri diqqətdən kənarda qala bilməz. Bu səbəbdən də Azərbaycanda yaşlıların təhsilinin tarixinə nəzər salmaq daha məqsədəuyğun olardı.

Müasir dövrdə yaşlıların təhsili çox vacib, aktual və ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən problemlərdən biri olmuşdur. Cəmiyyətin inkişaf etməsi ilə əlaqədar olaraq təhsil sahəsində də müxtəlif yeni prioritet məsələlər meydana çıxmışdır. Yaşlıların təhsili (YT) problemi də məhz zamanın tələbi, həmin prioritet məsələlərdən biridir.

Yaşlıların təhsili – fasiləsiz təhsil sisteminin tərkib hissəsi olmaqla, vətəndaşların cəmiyyətdə, iqtisadiyyatda, habelə, gündəlik həyatımızda baş verən dəyişikliklərlə ayaqlaşmasını təmin etmək məqsədilə çevik tədris proqramları əsasında həyata keçirilən təhsil prosesidir. Yaşlıların təhsili fəaliyyəti məqsədyönlü bir prosesdir ki, onun vasitəsilə fərdin şəxsi xüsusiyyətləri, kompetensiyaları, yaradıcı imkanları, həyatda baş verən hadisələri dərk etmə qabiliyyətləri, yeni fikirləri formalaşır, yeniləşir və onun yaşadığı dövrün tələblərinə cavab verir.

Müasir dövrdə hər şey, hətta insanların iş və həyat tərzi də çox sürətli templərlə dəyişir, inkişaf edir. Belə bir şəraitdə insanların istər cəmiyyətdə, istərsə də iqtisadiyyatda baş verən dəyişikliklərə uyğunlaşması yalnız Ömür Boyu Təhsil (ÖBT) vasitəsilə mümkündür.

Uğurla həyata keçirilən fasiləsiz təhsil sistemində yaşlıların təhsili mühüm əhəmiyyətə malik bir sahədir. Əgər ümumi və ali təhsilin əsas məqsədi cəmiyyətə, ictimaiyyətə, vətənə layiqli vətəndaş, savadlı kadrlar yetişdirməkdirsə, yaşlıların təhsili isə artıq bir şəxsiyyət kimi formalaşmış, müəyyən bilik və təcrübəyə malik olan birinin bazar iqtisadiyyatı şəraitində, cəmiyyətdə müasir elm və texnologiyaların inkişafı nəticəsində baş verən dəyişikliklərə uyğunlaşması və adaptasiyasını təmin etmək, əmək bazarında rəqabətqabiliyyətli olmaları üçün onlara lazımi bilik və bacarıqları aşılamaqdır. Məhz bu səbəbdən də müasir şəraitdə yaşlıların təhsilini köhnə, ənənəvi metod və prinsiplərlə deyil, müasir metodologiyaya

əsasən, informasiya-kommunikasiya texnologiyalarını (İKT) tətbiq etməklə həyata keçirmək daha məqsədəuyğundur. Bu sahədə uğur əldə etmək üçün isə təhsil prosesi zamanı təhsilalanların (yaşlıların) əvvəllər yiyələndikləri bilik, bacarıq və vərdişlərdən də yeri gəldikcə düzgün istifadə etmək, onların istək, maraq, tələb və ehtiyaclarını da nəzərə almaq lazımdır.

Son dövrlərdə yaşlıların təhsilinin tərkibinə həm ölkəmizdə, həm də beynəlxalq miqyasda böyük diqqət yetirilir. Elmi-texniki tərəqqi insanların bilik və vərdişlərinin daim artırılması tələbini zəruriləşdirmiş, ixtisasartırma və yenidən hazırlanma təhsilinin əhəmiyyətini daha da aktuallaşdırmışdır. Elə bu səbəbdən də 1997-ci ildə (14-18 iyul) Almaniyanın Hamburq şəhərində keçirilmiş beynəlxalq konfransda yaşlıların təhsili "XXI əsrin açarı" adlandırılmışdır.

Onu da qeyd etməliyik ki, Boloniya prosesinə qoşulmaq istəyən ölkələr qarşısında qoyulan tələblərdən biri də yaşlıların təhsili sisteminin yaradılmasıdır. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2005-ci ildə "Yaşlıların Təhsili Qanunu" layihəsi müzakirəyə təqdim olunsa da, qanun kimi hələ də öz təsdiqini tapmamışdır. Bu qanun layihəsində yaşlıların təhsili termininə aydınlıq gətirilmiş, müasir dövrdə yaşlıların təhsilinin məqsəd, vəzifə və funksiyaları, dövlət siyasətinin əsas prinsipləri, əsas bölmə və istiqamətləri, komponentləri göstərilmiş, yaşlıların təhsili sisteminin idarə olunması, yaşlıların təhsil müəssisələrinin adları sadalanmış, yaşlıların təhsil hüquqlarına və bu sahədə prioritet olan məsələlərə toxunulmuşdur.

"Yaşlıların Təhsili Qanunu" layihəsində qarşıya qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsinə dəstək verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il 6 dekabr tarixli fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" adlı layihəni təsdiq etmişdir. Layihədə 2017-2019-cu illərdə Azərbaycanda yaşlıların təhsilinə təkan verəcək peşə, ixtisasartırma və kadr hazırlığı kurslarına investisiya qoyuluşu, aztəminatlı ailələrdən olan şəxslərin də həmin

kurslarda təhsil alması üçün təhsil xərclərinin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur.

“Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi” adlı layihənin təsdiq edilməsinin əsas məqsədi işsizliyin geniş yayıldığı bir dövrdə, işsizlərin əmək bazarının tələblərinə müvafiq, ən çox tələbat olan sahələr üzrə yeni bilik və bacarıqları əldə edə bilmələri üçün qısa müddətli kurslarda, artıq müəyyən bir peşənin sahibi olsalar belə, peşə bacarıqlarının artırılmasına və imkanlarının genişləndirilməsinə ehtiyac duyan şəxslər üçün ixtisasartırma kurslarında təhsil almalarına şəraitin yaradılması, həmçinin müxtəlif sahələr (kompüter, dil, tibb bacısı, dayə, tikiş, toxuculuq, bərbər, çilingər, qaynaqçı və s.) üzrə təlim kurslarının təşkil edilməsidir.

Müasir dövrdə yaşlıların təhsili dedikdə yalnız ahıl qocalar deyil, artıq yetkinlik yaşını keçmiş, müstəqil həyatı ilə yaşayan, həyat təcrübəsi və bir çox hallarda peşəsi olan insanlar (şərti olaraq 18 yaşından yuxarı) nəzərdə tutulur.

Bu gün dünyada yaşlıların təhsili sahəsindəki nəşri tədqiqatlara YUNESCO – nun Təhsil İnstitutu (Hamburq) və Beynəlxalq Təhsilin Planlaşdırılması İnstitutu (Paris) rəhbərdik edir. Ən böyük mərkəzlər isə Beynəlxalq Təhsil İnstitutu (ABŞ), Beynəlxalq Pedaqoji Mərkəz (Fransa), Yaşlıların Təhsilinin Milli İnstitutu (Böyük Britaniya), Beynəlxalq Pedaqoji Tədqiqatlar İnstitutu (Almaniya), Yaşlıların Təhsilinin İsveçrə Təşkilatı və başqalarıdır.

Azərbaycanda yaşlıların təhsilinin təşəkkülü və inkişafının ilk mərhələsi tarixi XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrə aid materiallar əsasən arxiv sənədləri və dövri mətbuat nümunələridir. Tədqiqat işinin əsas məqsədi qeyd olunan mənbələr üzrə XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyəti təhlil edərək, adı çəkilən dövrdə yaşlıların təhsilinə xidmət edən təhsil müəssisələrinin fəaliyyətini, yaşlıların təhsil müəssisələrinin yaradılmasında və onların mədəni-maarif səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamış xeyriyyə və maarif cəmiyyətlərinin rolunu, həmin dövr üzrə pedaqoji fikir

nümayəndələrinin ictimai-pedaqoji hərəkatdakı iştirakını və xalqın maarifləndirilməsi sahəsində gördüyü işləri araşdırmaqdan ibarətdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində ictimai-pedaqoji hərəkatın xüsusiyyətləri araşdırılarkən həmin dövrün ağır sosial-iqtisadi, ictimai və siyası vəziyyəti də gözönünə alınaraq müəyyən nəticələr əldə olnumuşdur.

Ümumilikdə, tarixə nəzər salsaq görərik ki, XIX əsrdə Azərbaycan tarixi mühüm ictimai və sosial-iqtisadi hadisələrlə səciyyələnmişdir. Məhz bu dövrdə Azərbaycanın istər mədəni-maarif həyatında, istərsə də elmin müxtəlif sahələrində inkişaf nəzərə çarpmaqda idi və bu inkişafda qabaqcıl rus mədəniyyətinin də təsiri hiss olunurdu.

Rus mədəniyyətinin təsiri ilə sıralarında H.Zərdabi, F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov, Ə.Topçubaşov, N.Nərimanov və bir çoxlarının da olduğu yeni ziyalılar nəsli formalaşmışdır. Adı çəkilən mütəfəkkirlərin hər biri Azərbaycanın mədəniyyət, elm, ədəbiyyat, mətbuat sahələrində çalışmış, xalqın rifahı üçün mübarizə aparmışlar.

Artıq XIX əsrin sonlarına doğru Azərbaycanda ictimai-pedaqoji cərəyanın nümayəndələri çox gözəl anlayırdılar ki, cəmiyyətin kökündən dəyişdirilməsi ancaq xalqın maarifləndirilməsi, elm və mədəniyyət ocaqlarının yaradılması, məktəb şəbəkəsinin genişləndirilməsi, xalqın bütün təbəqəsinin, o cümlədən yaşlıların savad alması yolu ilə mümkün ola bilərdi.

Qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsi üçün Azərbaycan maarifçiləri mühüm qərarlar qəbul etməli və ciddi addımlar atmalı idilər. Atılan addımlar sırasında müxtəlif qəzet və jurnal səhifələrində problemlərin həllinə dair məqalələrin dərc olunması, dərslik və dərs vəsaitlərinin çap olunması, kitabxana və qiraətxanaların, xalq universitetlərinin yaradılması, yaşlıların maarifləndirilməsinə xidmət edən bazar günü və cümə məktəblərinin, axşam və texniki kursların, peşə və sənət məktəblərinin açılması, müxtəlif mövzuları əhatə edən mühazirə və söhbətlərin aparılması, xeyriyyə

məqsədi ilə bədii və ədəbi gecələrin, teatr tamaşalarının və konsertlərin keçirilməsi dururdu.

Apardığımız tədqiqatlar göstərir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşlıların təhsili haqqında istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda bir sıra elmi-tədqiqatlar aparılmış, dissertasiyalar, məqalələr və monoqrafiyalar yazılmışdır. Azərbaycanda H.Əhmədov "XIX əsr Azərbaycan məktəbi", N.Tahirzadə "Из истории Азербайджанской интелигенции" adlı monoqrafiyalarında yaşlıların təhsilində müstəsna rolu olan bazar günü məktəbləri, axşam kursları, cümə məktəbləri, xalq oxuları və qiraətxanalarının fəaliyyətini araşdırmış, H.H.Əhmədov "Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti", C.Cavadov "Azərbaycanda xeyriyyəçilik hərəkatı" adlı əsərlərində yaşlıların təhsilində xeyriyyə cəmiyyətlərinin roluna toxunmuşlar. A.Kərimov "Очерки по истории трудового и политехнического обучения в школах Азербайджана (II пол. XIX в.) adlı pedaqoji elmlər doktoru alimlik dərəcəsi almaq üçün yazdığı dissertasiya işində yaşlıların təhsili üzrə Rus Texniki Cəmiyyətinin fəaliyyətindən danışmış, H.Tağıyev "Azərbaycanda kitabxanaçılıq işi" (XII əsrdən 1920-ci ilə qədər) və A.Xələfov "Azərbaycanda kitabxana işinin tarixi" adlı kitablarında yaşlıların təhsilində əvəzolunmaz rolu olan kitabxana və qiraətxanaların rolundan söhbət açmışlar. Bundan başqa M.Mərdanov özünün "Azərbaycan təhsil tarixi" adlı kitabının I cildində XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşlıların təhsilinin ümumi vəziyyətindən və bu sahədə maarifçilərimizin və xeyriyyə cəmiyyətlərinin apardığı işlərdən bəhs etmiş, "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" adlı kitabında isə yaşlıların təhsilini əlavə təhsilin tərkib hissəsi kimi xarakterizə etmişdir. R.Əsgərova da "Yaşlıların təhsilinin aktual məsələləri" əsərində yaşlıların təhsilinin müasir dövrdə inkişaf tendensiyaları və gələcək perspektivlərdən bəhs etmişdir.

Ümumilikdə, yaşlıların təhsili məsələsinə təkcə azərbaycanlı tədqiqatçılar deyil, rus tədqiqatçılar da bir sıra dissertasiyalar, məqalələr, monoqrafiyalar, elmi işlər həsr etmişlər. Bunların sıra-

sında M.V.Popinova “Развитие воскресных школ в России как формы образования взрослых: середина XIX начало XX веков”, S.A.Kononova “Становление внешкольного образования в России в  60-е годы XIX в. – начале XX в.: на материале Курской губернии” mövzusuna yazdıqları dissertasiya işlərində yaşlıların təhsilini müxtəlif aspektlərdən araşdırmışlar. N.İ.Piroqov, V.P.Vaxterov, S.Q.Verşlovski, Y.A.Dobrinskaya, O.A.Zaslavskaya, S.İ.Zmeyov, İ.T.Dronov, Q.R.Romanenkova, V.A.Karelin və başqaları yaşlıların təhsili və bu sahədə fəaliyyət göstərən təhsil ocaqlarının fəaliyyətinə dair bir çox məqalə və elmi-işlərin müəllifidirlər.

Qeyd etmək lazımdır ki, Azərbaycanda yaşlıların təhsili sahəsinə müasir dövrdə bir sıra elmi tədqiqat işləri həsr olunsa da, onun tarixi keçmişi hələ də tədqiq olunmamış bir sahə kimi qalmaqdadır. Ancaq bəzi tədqiqatçıların (H.Əhmədov, N.Tahirzadə, A.Kərimov və b.) elmi əsərlərində XIX əsrin sonları, XX əsrin əvvələrində yaşlıların təhsili və bu sahədə xeyli təhsil müəssisələrinin olduğu vurğulansa da, həmin dövrdə Azərbaycanda yaşlıların ümumi və peşə təhsili ayrıca bir  tarixi-pedaqoji tədqiqat obyektinə çevrilməmişdir. Yalnız arxiv sənədləri, xeyriyyə cəmiyyətlərinin nizamnamələri, “Neftyanoye delo”, “Kavkazskiy kalendar”, “İrşad”, “Kaspi”, “Həyat”, “Tərəqqi” və b. qəzet və jurnallara, bir çox tarixi-pedaqoji mənbələrə müraciət etməklə bu sahədə müfəssəl məlumat əldə etmək mümkündür.

Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri də yeni dövrdə bazar iqtisadiyyatının bərqərar olması sayəsində sosial-iqtisadi yeniliklərə aid biliklərin yaşlı nəslə çatdırılmasını əsaslandırmaqdır. Bazar iqtisadiyyatının prinsipləri və ondan irəli gələn hüquqi qanunların, ekoloji tələblərə uyğun istehsalın təşkili və aparılması qaydalarının öyrənilməsi hazırkı dövrdə yaşlıların təhsilini daha da aktuallaşdıraraq, ölkəmizdə onun tarixinin tədqiq olunmasına böyük maraq və ehtiyac doğurur.

İkinci bir tərəfdən də Azərbaycan elminin, təhsilinin dünya elm və təhsil sisteminə inteqrasiya edilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqi və buna müvafiq yeni istehsal

sahələrinin meydana gəlməsi də yaşlı nəslin bu istiqamətdə geniş elmi biliklərlə silahlanmasını tələb edir. Ona görə də biz bütün yuxarıda sadalanan məqamları nəzərə alaraq "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlıların təhsili" mövzusunda dissertasiya işini yazmağı məqsədəuyğun saymışıq.

**Tədqiqatın obyektini** XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda təhsil və pedaqoji fikir tarixi təşkil edir.

**Tədqiqatın predmetini** XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlıların təhsilinin inkişafı təşkil edir.

**Tədqiqatın məqsədi** XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlıların təhsilini şərtləndirən ictimai-pedaqoji hərəkat və mədəni şəraiti gözönünə gətirərək, yaşlı əhalinin ümumi və peşə təhsilini zəruri edən amilləri müəyyənləşdirməkdən, yaşlıların maarifləndirilməsində müstəsna rolu olan bazar günü məktəbləri, cümə məktəbləri, axşam kursları, texniki-peşə məktəblərinin, kitabxana və qiraətxanaların və s. fəaliyyətinin zəruriliyini əsaslandırmaqdan, bu sahədə xeyriyyə və savad cəmiyyətlərinin, milli ziyalıların apardığı mübarizənin mahiyyətini işıqlandırmaqdan, əldə olunan nəticələri ümumiləşdirməkdən və sistemləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-pedaqoji hərəkat və onun əhalinin mədəni-maarif səviyyəsinin yüksəldilməsinə göstərdiyi təsiri müəyyənləşdirmək;
- XIX əsrin sonu, XX əsrin əvvəllərində dövrün tarixi mənbələrini araşdıraraq Azərbaycanda yaşlıların təhsilini zəruri edən amilləri üzə çıxarmaq;
- XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlıların maarifləndirilməsi məqsədilə təsis edilmiş bazar günü məktəbləri, cümə məktəbləri, axşam kursları, peşə və texniki məktəblərin, kitabxana-qiraətxanaların, oxu evlərinin fəaliyyətini araşdıraraq onların bu sahədə gördüyü işlərin mahiyyətini açmaq;
- yaşlı əhalinin maarifləndirilməsində xeyriyyə və savad

cəmiyyətlərinin rolunu göstərməklə, onların bu sahədəki fəaliyyətinə aydınlıq gətirmək;

- Azərbaycan maarifpərvərlərinin və milli burjuaziyanın nümayəndələrinin yaşlıların təhsili uğrunda mübarizəsini təhlil etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tədqiq olunan prinsiplər, metodlar, vasitələr və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları** tarixi-müqayisəli metod, analiz və sintez, induksiya və deduksiya metodları, nəzəri təhlil, ümumiləşdirmə, arxiv sənədlərinin öyrənilməsi və s. təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** odan ibarətdir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlı əhalinin maarifləndirilməsində maarif cəmiyyətlərinin, Azərbaycan ziyalılarının, mesenatların, həmçinin cümə günü və bazar günü məktəblərinin, axşam kurslarının, peşə kurslarının, kitabxana və qiraətxanalarının, xalq evlərinin, savad cəmiyyətlərinin, o cümlədən, Rus Texniki Cəmiyyətinin Bakı filialının fəaliyyəti ilk dəfə kompleks halında tədqiq olunur, inkişaf tendensiyaları müəyyənləşdirilir, ümumiləşdirilir və sistemləşdirilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Aparılmış tədqiqatda XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikir tarixi, xeyriyyə cəmiyyətlərinin, kitabxana və qiraətxanaların, xalq evlərinin, o cümlədən yaşlıların maarifləndirilməsinə xidmət edən təhsil ocaqlarının, kursların fəaliyyət tarixi hərtərəfli və dərin araşdırılaraq sistemli şəkildə təhlil edilmişdir ki, bu da öz növbəsində pedaqoji fikir tariximizi yeni ideyalarla zənginləşdirərək gələcəkdə yeni tədqiqat işlərinin aparılması zamanı mənbə rolunu oynayacaqdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada öz əksini tapmış Azərbaycanda yaşlıların təhsilinin tarixi ilə bağlı tədqiqat materiallarından “Pedaqogika tarixi”, “Azərbaycanda məktəb və

pedaqoji fikir tarixi" fənlərinin tədrisində və eyni zamanda "Azərbaycanın Pedaqoji antalogiyası"nın tərtibində istifadə etmək olar.

**Müdafiəyə çıxarılan müddəalar:**

1. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşlı əhalinin maarifləndirilməsi Azərbaycanda sosial-iqtisadi və mədəni inkişafı şərtləndirmişdir;
2. XIX əsrin sonu, XX əsrin əvvəllərində ictimai-pedaqoji hərəkat yaşlıların təhsilinin əhəmiyyətini və ona olan tələbatı daha da artırmışdır;
3. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşlı əhali arasında maarifçilik fəaliyyəti bazar günü məktəbləri, cümə məktəbləri, axşam kursları, peşə məktəbləri, xalq universitetləri, kitabxana və qiraətxanaların açılmasına təkan vermişdir;
4. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlıların maarifləndirilməsinə xeyriyyə və savad cəmiyyətləri maddi və mənəvi dəstək vermişdilər;
5. Azərbaycanda fəhlələrin təhsil səviyyəsinin yüksəldilməsinə Rus Texniki Cəmiyyətinin Bakı filialı, əhali arasında mədəni-maarif işlərinin həyata keçirilməsinə qabaqcıl Azərbaycan ziyalıları və xeyriyyəçiləri güclü təsir göstərmişdir;
6. Müasir dövrdə sosial-iqtisadi, siyasi, mədəni və başqa sahələri əhatə edən problemlərin həlli sahəsində atılan addımlar yaşlıların təhsilinin də düzgün qurulmasına gətirib çıxarmışdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri BSU-nun Pedaqogika və psixologiya kafedrasında müzakirə olunmuş, müxtəlif respublika və beynəlxalq səviyyəli elmi konfranslarda məruzə edilmiş, irəli sürülən elmi müddəalar müdafiə olunmuşdur. Bundan başqa, tədqiqatın başlıca müddəaları, əsas məzmunu və nəticələri AAK-ın tövsiyə etdiyi, 4 xarici nəşr olmaqla, respublikanın elmi-pedaqoji təmayüllü jurnallarında çap olunmuş məqalələrdə (7 tezis, 6 məqalə) öz əksini tapmışdır.

**İddiaçının şəxsi töhfəsi:** Dissertasiyada müəyyənləşdirilərək irəli sürülmüş və tətbiq edilərək təsdiqini tapmış müəllif töhfələrinə XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlı əhalinin

maarifləndirilməsi, onların mədəni-maarif səviyyəsinin yüksəldilməsində bazar günü məktəbləri, cümə məktəbləri, axşam kursları, peşə məktəbləri, xalq universitetləri, kitabxana və qiraətxanaların, xeyriyyə və savad cəmiyyətlərinin rolunu üzə çıxarmasını aid etmək olar.

Dissertasiya **Bakı Slavyan Universitetində** yerinə yetirilmişdir.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Giriş - 13, I fəsil - 65, II fəsil - 78, nəticə 4, istifadə edilmiş ədəbiyyat siyahısı 18 səhifədən, ümumilikdə dissertasiya işi 175 səhifə, 358.852 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiqatın mövzusunun aktuallığı əsaslandırılmış, işin predmeti, obyekti, məqsədi və vəzifələri, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti, aprobasiyası kimi məsələlər öz əksini tapmışdır.

Dissertasiyanın **"XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşlıların təhsilinin inkişafında əsas istiqamətlər"** adlanan I fəsli dörd yarımfəsildən ibarətdir. "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-pedaqoji hərəkat" adlanan birinci yarımfəsildə XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiyada təhkimçilik hüququ ləğv edildikdən sonra kapitalizm cəmiyyətinin öz inkişafında yeni bir mərhələyə, inkişaf yoluna qədəm qoymasından, sıralarında Azərbaycanın da olduğu Rusiyanın milli ucqarlarında bir çox islahatlar həyata keçirilməyə başlanılmasından və bu islahatların elm və təhsil sahəsinə də sirayət etməsindən bəhs edilir. Həmçinin bu yarımfəsildə əsaslandırılır ki, çarizmin işğalçılıq siyasəti uzun illər Azərbaycan xalqının maarif və mədəniyyətinin inkişafına maneəçilik törətsə də, XIX əsrin sonlarından etibarən Azərbaycanda istər sənaye və təsərrüfat sahələri, istərsə də mədəniyyət və maarif sahələrində də canlanma müşahidə olunmaqda idi. Lakin iqti-

sadi, siyasi və mədəni inkişafa baxmayaraq, XX əsrin əvvəllərində hələ də əhalinin əksər hissəsi savadsız idi. Buna səbəb kimi çarizmin qeyri-rus xalqlarının, o cümlədən Azərbaycan xalqının savadlanmasını özü üçün böyük bir təhlükə hesab etməsi ilə əlaqədar, müxtəlif bəhanələr gətirərək hər addımbaşı milli ucqarlarda elm və savadın yayılmasına maneə törətməsi göstərilmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ideya-siyasi mübarizə də qabarıq şəkildə özünü biruzə verməkdə idi. Bu mübarizə əsasən cəmiyyətin müxtəlif sosial təbəqələri və ziyalı şəxsləri arasında gedirdi. Bu dövrdə Azərbaycanda elm və təhsil sahələrinin inkişafı, yeni tədris müəssisələrinin yaradılması, təlim və tərbiyə sahəsində mütərəqqi ideyaların irəli sürülməsi zəmnində pedaqoji cərəyanlar yaranmağa başladı.

Bu yarımfəsildə, həmçinin əhalinin mədəni-maarif səviyyəsinin yüksəldilməsi, yaşlı əhalinin maarifləndirilməsi yolunda atılan addımlar sırasında Azərbaycanın maarifpərvər ziyalıları və ictimai-siyasi xadimlərinin dəstəyi ilə yeni tipli məktəblərin, ümumtəhsil və peşə məktəblərinin, kitabxana və qiraətxanaların açılmasının, qəzet və jurnalların nəşrinin önəmi vurğulanmış, bütün sadalanan amillərin yaşlıların maarifləndirilməsi sahəsindəki rolu yüksək qiymətləndirilmişdir.

"Yaşlıların maarifləndirilməsində bazar günü məktəblərinin rolu" adlı ikinci yarımfəsildə qeyd olunmuşdur ki, XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda neft sənayesinin, gəmiçilik və ticarətin inkişafı ilə Bakı bir anda böyük sənaye şəhərinə çevrilmişdir. Bundan başqa kənd təsərrüfatı, pambıqçılıq və ipəkçilik sahələri də inkişaf etməkdə idi. Yüngül sənaye sahələri təkcə Bakıda yox, Gəncə, Şəki, Şuşa və digər şəhərlərdə də yaradılmışdır. Məhz bütün bunların əsasında savadlı, istedadlı, rus dilini bilən, müasir texnikadan istifadə etməyi bacaran insanlara kəskin ehtiyac duyulmuşdu. Hakimiyyət isə öz növbəsində zamanın tələbləri ilə ayaqlaşmalı, ümumi və texniki-peşə təhsilinin verilməsi məqsədilə yaşlılar üçün müxtəlif məktəb və kursların açılmasına şərait yaratmalı idi. Artıq XIX əsrin son illərindən başlayaraq bu məqsədə xidmət edən

təhsil müəssisələri yaranmağa başlamışdır ki, belə təhsil müəssisələrindən biri də bazar günü məktəbləri idi. Bu məktəblər ancaq həftənin bazar günləri fəaliyyət göstərdikləri üçün “bazar günü məktəbləri” adlandırılmışdılar.

İlk bazar günü məktəbləri Rusiyada açılsa da, fəaliyyətə başladıqları bir müddətdən sonra onların sorağı Zaqafqaziya və Azərbaycana da gəlib çatmış və rus bazar günü məktəblərinin modeli əsasında burada da məktəblər açılmağa başlanmışdı.

Bu yarımfəsildə əsaslandırılmışdır ki, Azərbaycanda bazar günü məktəbləri XIX əsrin 80-ci illərində geniş vüsət almağa başlasa da, yaşlıların maarifləndirilməsinə xidmət edən ilk bazar günü məktəbi Bakı 4 sinifli ali ibtidai məktəbin müəllimi Zotikov – Pisadze tərəfindən 1862-ci il aprelin 29-da kazarmada batolyon üçün təsis edilmişdir. Lakin bu məktəb dini xarakter daşıyır və burada hərbiçilərə ilahiyyat dərsləri öyrədilirdi. Ancaq məktəbin fəaliyyəti çox uzun çəkməmiş, qısa bir müddətdən sonra o bağlanmış, daha sonralar isə Azərbaycanda bazar günü məktəbi yenidən 1881-ci il dekabrın 13-də Şamaxıda şəhər məktəbinin nəzdində fəaliyyətə başlamışdı. Bakıda isə ilk bazar günü məktəbinin yenidən 1893-cü ildə Qara şəhərdə “Nobel qardaşları” şirkətinin nəzdində açıldığı qeyd olunmuşdu.

Burada, həmçinin qeyd olunmuşdur ki, savadlılıq səviyyəsinə görə bazar günü məktəblərindəki qruplar 3 hissəyə bölünürdü:

Savadsızlar qrupu - bu qrupda heç bir yazı və oxu qabiliyyətlərinə malik olmayanlar təhsil alırdılar. Əsas məqsəd şagirdlərə yazıb-oxumağı öyrətmək idi. Azsavadlılar qrupunda oxuyanların tədris prosesində rastlaşdıqları əsas maneə onların rus dilini çox zəif bilmələri olduğu üçün əsas diqqət bu problemin aradan qaldırılmasına yönəlmişdi. Savadlılar qrupunda isə təhsil alanların əksəriyyəti ruslar, çox az qismi isə yerli əhali idi. Bu qrupun şagirdləri digərləri ilə müqayisədə çox savadlı olduqları üçün burada rus dilinin qrammatikası və onun xüsusiyyətləri öyrədilir, tarix və ədəbiyyat fənnlərinin tədrisinə daha çox diqqət ayrılır, “Böyüklərçün dərslik”dən istifadə olunurdu.

Ümumiyyətlə, bu yarımfəsildə Azərbaycanın bütün bölgələrində fəaliyyət göstərən bazar günü məktəbləri haqqında arxiv sənədləri və dövri mətbuat orqanları əsasında dərin araşdırma aparılmış, onun nəticələri dissertasiyada ətraflı surətdə öz əksini tapmış, məktəbin fəaliyyəti dövründə rastlaşdığı çətinliklər və əldə etdiyi uğurlar gözönünə gətirilərək, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yaşlı əhalinin maarifləndirilməsində bazar günü məktəblərinin önəmi vurğulanmışdı.

Birinci fəslin üçüncü yarımfəsli "Azərbaycanda yaşlı əhalinin maarifləndirilməsində cümə məktəblərinin və axşam kurslarının rolu" adlanır. Bu yarımfəsildə adından da göründüyü kimi cümə məktəbləri və axşam kurslarının yaşlıların maarifləndirilməsi üzrə fəaliyyəti araşdırılmış, cümə məktəblərinin yaşlılar üçün məktəb-lərin açılmasına dair nəzərdə tutulmuş qanuna, həmçinin qeyri-rus əhali üçün ibtidai məktəblərin açılması haqqında ümumi nizamna-məyə əsasən təsis edildiyi göstərilmişdir.

Bu yarımfəsildə cümə günü məktəblərinin təşkili və himayəsini o dövrdə yeni fəaliyyətə başlayan müsəlman xeyriyyə cəmiyyəti «Nicat»ın öz üzərinə götürdüyü və məktəblərin 1906-cı ilin oktyabrında IV rus-azərbaycan məktəbinin nəzdində fəaliyyətə baş-ladığı qeyd olunmuşdu. Cümə məktəblərinin yaranmasının səbəbləri sırasında müsəlman aləmində istirahət gününün cümə günü olması səbəbiylə bazar günü işləyən müsəlman əhalinin bazar günü məktəblərinə gedə bilməmələri, digər bir səbəb isə 1905-ci ildə millətlərarası qırğından sonra müsəlmanların əsasən rus və ermə-nilərin yaşadıqları ərazilərdə yaradılan bazar günü məktəblərinə get-məyə ehtiyat etmələrinin olduğu vurğulanmışdı.

Dissertasiyanın bu yarımfəslində, həmçinin qeyd olunmuşdur ki, cümə günü məktəbləri 1906-cı ilin oktyabr ayında IV rus-Azər-baycan məktəbinin nəzdində fəaliyyətə başlamışdı. Onun fəaliy-yətini arxiv sənədlərində yalnız 1913-1914-cü tədris ilinədək izlə-mək mümkün olmuşdur.

Cümə günü məktəbləri bazar günü məktəblərinin modeli əsasında yaranmış, istər tədris prosesinin özündə və fənn proqram-

larında, istərsə də digər ümumi məsələlərdə bazar günü məktəblərindən çox da seçilmirdi. Bazar günü məktəblərində olduğu kimi bu məktəblərdə də təhsil ödənişsiz olmuşdu. Cümə günü məktəblərinin açılması müsəlman əhali üçün nəzərdə tutulsa da orada təhsil alanların milli tərkibi müxtəlif idi. 1908-1909-cu tədris ilində məktəbdə təhsil alan 278 nəfərdən 245-i tatar (azərbaycanlı – A.N.), 20-si fars, 8-i ləzgi, 5-i qafqaz tatarı idi. Bunların sırasında xırda tacirlər, ustalar, zərgərlar, dərzilər, bərbərlər, dülgərlər, bənnalar, dəmirçilər, bağbanlar və başqa peşə sahibləri vardı. Təhsil alanların yaş göstəriciləri: 15-20 yaş - 173 nəfər; 21-25 yaş - 69 nəfər; 26-30 yaş 26 - nəfər; 31-40 yaş 11 nəfər idi[1].

Eyni zamanda bu yarımfəsildə cümə günü məktəbləri ilə bərabər, axşam kurslarının fəaliyyəti də işıqlandırılmış, ilk axşam kurslarının XIX əsrin 90-cı illərində fəaliyyətə başladığı göstərilmişdir. Həmin dövrdə axşam kurslarının şöhrət qazanması səbəblərindən biri kimi o dövrdə fəaliyyət göstərən digər təhsil müəssisələrinin əksəriyyətində tədris prosesinin tamamən rus dilində aparılması və rus dilini bilməyən müsəlman əhalinin orada oxumağa çətinlik çəkməsinin olduğu vurğulanmışdı. Bu səbəbdən də müəllim kontingentinin azərbaycanlılardan ibarət olduğu və tədrisin Azərbaycan dilində aparıldığı axşam kurslarına axın güclü olmuş, həmin tədris müəssisələrində dövrünün tanınmış müəllimlərindən olan Məmməd Həsən Əfəndiyev, Badəlbəy Badəlbəyov, Şükürbəy Əfəndiyev, Əli Cabbar İsmayılov, Həbib bəy Mahmudbəyovun dərs dedikləri göstərilmişdir.

Bu yarımfəsildə axşam kurslarında ilk əvvəllər 100-150 nəfərin təhsil alması nəzərdə tutulsa da, böyük xalq kütləsinin kurslara axını bu qərarın bir daha nəzərdən keçirilməsinə gətirib çıxardığı, lakin kursların açılması haqqında elan verilən gündən yaşlı əhalinin oraya axışmağa başladığı və beləliklə 1897-ci il 26 sentyabrında kurslara

[1] "Nicat" cəmiyyətinin müsəlmanlar üçün cümə günü məktəbləri haqqında 1908-1909-cu tədris ili üzrə hesabatı // Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, Fond № 389, siyahı №6, iş №457, vərəq 2-8.

175, açılış günündə 460, oktyabrın 10-na kimi isə 800 nəfərin[1] yazıldığı qeyd olunmuşdu. Həmçinin axşam kurslarının uğurlarına baxmayaraq, artıq XX əsrin ilk günlərindən başlayaraq onun dinləyicilərinin sayında azalma nəzərə çarpdığı və zamanla bu kursların tamamən bağlandığı da göstərilmişdir.

Birinci fəslin "Peşə məktəbləri və xalq universitetlərinin Azərbaycanda yaşlı təbəqənin maarifləndirilməsi sahəsində fəaliyyəti" adlanan sonuncu yarımfəslində adı çəkilən təhsil ocaqlarının Azərbaycanda neft sənayesi ilə bərabər, qeyri-neft sənayesi – ayaqqabı, paltar, ipək və pambıq parçalar, mahud, keçə, kəndir, dülgərlik, xarratlıq, xamıtçılıq, dulusçuluq və b. sahələrin də inkişafı və burada çalışan ixtisaslı kadrlara böyük ehtiyacın duyulması ilə XIX əsrin 70-80-ci illərindən etibarən fəaliyyətə başladığı qeyd olunmuşdu. Mövcud şəraitdə müxtəlif peşələrə olan tələbatı ödəmək məqsədilə Bakı və onun ətraf əraziləri ilə bərabər, Azərbaycanın bir sıra bölgələrində dənizçilik, bağçılıq, ipəkçilik, dülgərlik, xarratlıq, xamıtçılıq, dulusçuluq peşə məktəbləri ilə bərabər, kommersiya kursları da fəaliyyət göstərmişdir. Bakıda dənizçilik sinfinin ilk dəfə 1881-ci il 8 noyabr tarixində dəniz kənarında yerləşən, "Olgin kazarması" adlanan keçmiş qospitalın binasında fəaliyyətə başladığı qeyd olunmuş[2], məktəbin fəaliyyəti, onun məzunları haqqında ətraflı məlumat verilmişdir. Bundan başqa bu yarımfəsildə 1896-cı ilin oktyabrın 27-də H.Z.Tağıyevin səyləri ilə Mərdəkanda bağçılıq məktəbinin də yaradıldığı[3], məktəbdə elementar biliklər, hesab və bağçılıq üzrə nəzəri və təcrübi biliklərin verildiyi, dərslərin Azərbaycan dilinin köməyi ilə rus dilində aparıldığı, məktəbin fəaliyyətə başlamasından qısa bir müddət sonra burada yaşlılar üçün axşam

---

[1] Bakı texniki məktəbinin axşam kurslarının fəaliyyəti haqqında məlumat (25 dekabr 1898-ci il) // Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, Fond № 389, siyahı №6, iş №245 , vərəq 5-10.

[2] Очерки истории профессионально-технического образования в СССР./ - Москва: Педагогика, -1981. с.159

[3] Ибрагимов, М.Дж. Предпринимательская деятельность Г.З.Тагиева / М.Дж. Ибрагимов. - Баку: Азернешр, -1990. с.34

kursları və bazar günü oxularının da təşkil edildiyi və bu kurslara xalqın marağının böyük olduğu, bundan başqa Azərbaycanın Zaqatala, Gəncə və s. kimi bölgələrində də peşə məktəblərinin fəaliyyət göstərdiyi vurğulanmışdı.

Peşə məktəbləri ilə yanaşı adı çəkilən yarımfəsildə birinci rus inqilabı dövründə yaradılan və XX əsrin 20-ci illərinə kimi fəaliyyət göstərən, əsas məqsədlərindən biri sadə xalq arasında tədrisin ana dilində aparılması ilə ana dilinin təbliğ edilməsi olan xalq universitetlərinin fəaliyyəti geniş araşdırılmışdır. Xalq universitetlərinin təkcə imkanlı təbəqədən olan şəxslər üçün deyil, ümumən, təhsil almaqdan məhrum xalq üçün açıldığı, onun xalqın bütün təbəqəsi üçün əlçatan olması nəzərdə tutulduğu qeyd olunmuşdu.

Xalq universitetlərində dərslərin Azərbaycanda ilk dəfə olaraq 1918-ci ilin may ayında Xəzər donanmasının mərkəzi komitəsinin təşəbbüsü ilə fəaliyyətə başladığı, artıq 1918-ci ilin may-iyun aylarında Bakının fəhlələr məskunlaşan bir çox rayonlarında, o cümlədən Bayıl, Qara Şəhər və Sabunçuda da xalq universitetləri təsis edildiyi göstərilmişdi[1].

Dissertasiyanın ikinci fəsli **“XX əsrin əvvəllərində yaşlıların təhsilində ictimai təşkilatların və maarifçilərin rolu”** adlanır. Fəslin “Azərbaycanda fəhlələrin təhsil səviyyəsinin yüksəldilməsi sahəsində Rus Texniki Cəmiyyəti Bakı filialının, texniki və peşə təhsili qurultaylarının fəaliyyəti” adlı birinci yarımfəslində əsas məqsədi Bakı Neft Sənayeçiləri üçün peşəkar texniki kadrların hazırlanması olan texniki məktəblərin açılmasına XIX əsrin sonlarında başlanıldığı qeyd olunur. Texniki-peşə təhsilinin əsas müddəalarının işlənməsi, peşə məktəbinin fəal işçilərinin bir yerdə birləşməsi, qabaqcıl təhsil müəssisələrinin fəaliyyətini xarakterizə edən müxtəlif materialların toplanması və başqa məsələlərin həyata keçirilməsində texniki və peşə təhsili üzrə Rus Texniki Cəmiyyətinin təşəbbüsü ilə keçirilən Qurultayların müstəsna rolu olduğu vurğulanmışdı. Əsaslandırılmışdır ki, Bakıda yaşlıların maarifləndirilməsi

[1] Назарли А.Э. Народное образование в Азербайджанской Республике (1918-1920 гг.). Баку, Нурлан, 2008, с. 41.

sahəsində Rus Texniki Cəmiyyətinin Bakı filialının təsis etdiyi kursların rolu əvəzolunmazdır. 1879-cu ilin 14 aprel tarixində Rus Texniki Cəmiyyətinin ümumi iclasında “Normal qanunlar” («Нормальные законы») adlı layihə irəli sürülmüş, layihədə ustaların, maşinistlərin, fabrik, zavod, dəmiryolu işçilərinin və başqa sahələr üzrə kadrların təhsili, onlara elementar, xüsusi bilik və ibtidai təhsil vermək, əqli və əxlaq tərbiyəsini yüksəltmək məqsədilə Rus Texniki Cəmiyyətində aşağı peşə məktəbləri, fəhlələr və onların uşaqları üçün ibtidai ümumtəhsil məktəbləri ilə bərabər həm də kurslar, açıq oxular, kitabxana və qiraətxanaların açılmasının nəzərdə tutulduğu gösərilmişdi[1].

Cəmiyyətin Bakının mədənlərində işçilər üçün məktəbi ilk dəfə olaraq 1880-ci ildə təsis edilmişdir. Burada, həmçinin qeyd olunmuşdur ki, Rus Texniki Cəmiyətinin kurslarından başqa həmin dövrdə Bakıda rəsm məktəbi, topoqraf kursları, mərzçi texniklər hazırlayan kurslar, qızıl və gümüş zərgərləri kursları da fəaliyyət göstərmişdi. Dissertasiyanın bu yarımfəslində Quberniya əyarçılıq palatasının rəhbəri V.Zqlenitski tərəfindən Bakıda yerli əhalinin savad alması üçün yeni məktəblərin, qızıl və gümüş zərgərləri üçün məktəb və bazar günü kurslarının təsis edilməsi haqqında da ətraflı məlumat verilmişdir.

İkinci fəslin “Xeyriyyə və savad cəmiyyətlərinin yaşlı əhalinin maarifləndirilməsində rolu” adlanan ikinci yarımfəslində XX əsrin əvvəllərində mövcud ictimai-siyasi və tarixi zərurət nəticəsində Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndələrinin yardımı və Azərbaycanın tərəqqipərvər ziyalılarının fədakarlığı sayəsində Bakıda “Bakı müsəlman xeyriyyə cəmiyyəti”, “Nəşri-Maarif”, “Nicat”, “Səfa”, “Səadət” və s., eləcə də Azərbaycanın Quba, Şamaxı, Gəncə, Əmircan, Lənkəran və başqa şəhər və kəndlərində müsəlman xeyriyyə cəmiyyətlərinin fəaliyyətə başladığı, bu cəmiyyətlərin əsas məqsədinin onların nizamnamələrində də qeyd olunduğu kimi, elm,

---

[1] Карелин В.А.Школы русского технического общества для рабочих и их детей// Советская педагогика, №2, 1990, с. 114.

maarif və savaddan məhrum, mövhumat və cəhalətin məngənəsində sıxılan müsəlman xalqını savadlandırmaq olduğu qeyd olunmuşdu. Lakin xeyriyyə cəmiyyətlərinin işinin bununla məhdudlaşmadığı, onların bir sıra xeyriyyə və kütləvi-mədəni tədbirlər həyata keçirdiyi, kitabxanalar, qiraətxalar, xalq evləri açdığı, xeyriyyə məqsədi ilə teatr tamaşalarını səhnələşdiyi, əhalinin yaşlı təbəqəsini maarifləndirmək, onlara savad öyrətmək üçün cümə məktəbləri, bazar günü məktəbləri, axşam kursları və s. təsis etdikləri göstərilmişdir.

Bundan başqa bu yarımfəsildə maarifin, mədəniyyətin inkişafında böyük xidmətləri olan “Səadət”, “Səfa”, “Bizim məktəb”, “Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti”, “Bakı savad cəmiyyəti”, “Nur”, “Ümid”, “Əmircan müsəlman xeyriyyə cəmiyyəti”, “Balaxanı cəmiyyəti”, “Millət bağçası”, “Qara Şəhər cəmiyyət”, “Bibiheybət-Bayıl maarif cəmiyyəti” və s. müsəlman, “Yəhudi Cəmiyyəti”, “Gürcü yəhudiləri arasında maarifi yayan cəmiyyət”, "Prosvita cəmiyyəti", “Bakı – alman maarif cəmiyyəti” və başqaları bir sıra qeyri-müsəlman cəmiyyətləri haqqında geniş məlumatlar da öz əksini tapmışdır.

“Azərbaycan ziyalıları və mesenatlarının xalqın təhsil ehtiyaclarının ödənilməsinə töhfəsi” adlı üçüncü yarımfəsildə XIX əsrin II yarısından etibarən Azərbaycanda təhsilin, mədəniyyətin, elmin inkişafı ilə yanaşı, savadsız xalqın maariflənməsində, mədəni səviyyəsinin yüksəldilməsində də böyük rolu olan yeni ziyalılar nəslinin formalaşmağa başlandığı, milli şüurun oyanışı sahəsində mühüm addımlar atıldığı vurğulanaraq, belə bir şəraitdə Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə və digər demokratik ziyalıların maarifçilik ideyaları, pedaqoji fəaliyyəti, ədəbi-publisistik yazılarının oyanışa güclü təsir göstərdiyi qeyd olunmuşdu.

Bu yarımfəsildə adları çəkilən maarifçilərdən Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə və maarif sahəsində böyük xeyriyyəçilik işi ilə tanınmış Hacı Zeynalabdin Tağıyevin fəaliyyəti geniş araşdırılmışdır.

İkinci fəslin sonuncu "Əhali arasında mədəni-maarif işi, xalq qiraəti, kitabxana, qiraət və xalq evlərinin yaşlı əhalinin maarifləndirilməsində rolu" adlanan yarımfəslində əsaslandırılır ki, XIX əsrin II yarısından başlayaraq başda Bakı olmaqla, Azərbaycanın digər şəhərlərində də genişlənən inqilabi hərəkat fəhlələrin getdikcə artan mədəni tələblərində, məktəblər və digər mədəniyyət müəssisələri ilə yanaşı, kitabxanalar və qiraətxanalar açmaq zərurətini də irəli sürürdü. Bu cür kitabxana – qiraətxanaların açılmasına səbəb bir tərəfdən insanların əsrlərdir əsarətində olduqları cəhalət buxovlarını qıraraq elmə yiyələnmək, yeni biliklər, informasiya əldə etmək istəyi idisə, digər tərəfdən də Azərbaycanda neft sənayesinin sürətli inkişafı, yeni tipli zavod və fabriklərin açılması ilə savadlı texnik və mühəndislərə, xüsusən də texniki biliklərə yiyələnmiş fəhlələrə kəskin ehtiyacın duyulması olmuşdur.

XX əsrin əvvəllərində artıq Bakıda və onun ətraf rayonlarında Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının, Bakı Şəhər İdarəçiliyinin, peşə, mədəni-maarif və xeyriyyə cəmiyyətlərinin, neft sahibkarlarının və fərdi şəxslərin maddi və mənəvi dəstəyi ilə bir çox kitabxana və qiraətxanalar, xalq evləri fəaliyyət göstərməkdə idi.

Tədqiqat zamanı aşağıdakı nəticəyə gəlinmişdir:

1. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan təhsili tarixində çox önəmli yer tutmuşdur. Məhz bu dövrdə Azərbaycanda kapitalist münasibətlərinin həm sosial-iqtisadi, həm də elm və mədəniyyət sahələrindəki inkişafı XIX əsrin sonlarından etibarən burada istər sənaye və təsərrüfat sahələri, istərsə də mədəniyyət və maarif sahələrində canlanmaya gətirib çıxarmışdır. Bakıda neft quyularının aşkarlanması ilə paytaxt bir anda Rusiyanın ən inkişaf etmiş sənayə və ticarət mərkəzlərindən birinə çevrilmiş, neft sənayesi, dənizçilik və ticarətin inkişafı ilə bərabər kənd təsərrüfatı, ipəkçilik, pambıqçılıq və başqa sənaye sahələri də inkişaf etməyə başlamışdır.

2. XIX əsrin sonlarından başlayaraq Azərbaycanda neft və qeyri-neft sənaye sahələrinin inkişafı savadlı, rus dilli işçi və mütəxəssislərə olan tələbatı daha da artırmış və bunun əsasında

Azərbaycanda əsas məqsədi savadsız fəhlə kadrlarının və yaşlı əhalinin maariflənməsi, müəyyən peşə savadına malik olan texniki kadrların hazırlanması olan məktəbdənkənar təhsil müəssisələri fəaliyyət göstərməyə başlamışdır.

3. XIX əsrin II yarısından başlayaraq Azərbaycanda elm, mədəniyyət, təhsil sahələrinin inkişafı, yeni ziyalı təbəqəsinin yaranması ilə əlaqədar olaraq insanlarda müəyyən biliklərə yiyələnmək, savad və elm əldə etmək həvəsi baş qaldırmışdı. Bu da öz növbəsində xalqın mənəvi tələbatının ödənilməsi, həmçinin yaşlıların maarifləndirilməsi üçün kitabxana və qiraətxanaların, bazar günü və cümə məktəblərinin, axşam kursları, texniki və peşə məktəblərinin, xalq universitetlərinin və başqa elm və mədəniyyət ocaqlarının açılmasına gətirib çıxarmışdır.

4. XIX əsrin sonu, XX əsrin əvvəllərində ictimai hərəkat bütün səy və qüvvəsini sosial və milli azadlıq mübarizəsinə, məktəb və maarifin demokratikləşməsinə, təlim, peşə təhsili və yaşlıların təhsilində köklü islahatlara, dünyəvi elmlər müstəvisində təhsilinin məzmununun dəyişdirilməsinə, millilik prinsipləri əsasında təhsilin yenidən qurulmasına yönəltmiş, Azərbaycanın qabaqcıl demokratik ziyalıları və tərəqqipərvər maarifçiləri, ictimai təşkilatları və xeyriyyə cəmiyyətləri geniş xalq kütləsi, xüsusən də yaşlı əhali arasında savadın yayılmasına böyük güc və əmək sərf etmişlər.

5. Azərbaycanda müxtəlif səbəblərə görə elm və təhsildən kənarda qalmış yaşlı əhalinin və fəhlələrin elmi dünyagörüşünün formalaşması, onların elm və savada yiyələnməsində XIX əsrin sonlarından etibarən əsası Rusiyada qoyulmuş, daha sonralar isə Azərbaycanda da fəaliyyətə başlayan bazar günü məktəblərinin misilsiz xidmətləri olmuşdur.

6. XX əsrin əvvəllərində Azərbaycanda bazar günü məktəblərinin modeli əsasında, həftənin cümə günləri sırf müsəlman əhalinin maarifləndirilməsi məqsədilə təsis edilmiş cümə məktəbləri də yaşlıların maarifləndirilməsi sahəsində böyük uğurlara imza atmışdır.

7. XIX əsrin 90-cı illərindən fəaliyyətə başlayan, müəllim kontingentinin azərbaycanlılardan ibarət olduğu, digər təhsil ocaq-

larından fərqli olaraq tədrisin Azərbaycan dilində aparıldığı və əsas məqsədi savadsız fəhlə və işçilərin işdən sonrakı axşam saatlarında savad almasını təmin etmək olan axşam kurslarının da yaşlı əhali arasında savadın yayılmasında müstəsna rolu olmuşdur.

8. Azərbaycanda yaşlı əhalinin maarifləndirilməsində əvəzsiz rolu olan bazar günü məktəbləri, cümə məktəbləri və axşam kurslarının fəaliyyəti qısa olmasına baxmayaraq, maarif tariximizdə mühüm yer tutmuş, yaşlı əhalinin böyük bir hissəsi məhz həmin təhsil ocaqlarında savad almış, mədəniyyətə yiyələnmiş, tanınmış pedaqoqların müxtəlif mövzularda mühazirələrini dinləmişlər.

9. XIX əsrin sonlarında sürətli iqtisadi inkişaf sənayenin yeni sahələrinin inkişafına təkan vermiş və bunun əsasında burada çalışacaq savadlı, öz işinin peşəkarı olan texniki kadr və ixtisaslı fəhlələrə böyük ehtiyac yaranmışdır. Savadlı texniki kadrlara olan ehtiyacın aradan qaldırılması, Bakının mədən və zavodlarındakı fəhlələrin texniki biliklərinin artırılması məqsədilə Neft Sənayeçilərinin Qurultayı və Rus Texniki Cəmiyyətinin Bakı filialı tərəfindən müxtəlif ixtisaslar üzrə texniki kurslar təşkil edilmişdir.

10. XX əsrin əvvəllərində imkanlı təbəqədən olan şəxslər üçün deyil, ümumən, təhsil almaqdan məhrum xalq üçün təsis edilmiş, əhalinin bütün təbəqəsi üçün əlçatan olması nəzərdə tutulan, əsas məqsədi sadə yaşlılar arasında tədrisin ana dilində aparılması ilə, ana dilinin təbliğ olunması olan xalq universitetləri də fəaliyyət göstərirdi ki, onların da əsas dinləyici kontingenti yaşlı fəhlə və işçilərdən ibarət idi.

11. XX əsrin əvvəllərində mövcud ictimai-siyasi və tarixi zərurət nəticəsində Azərbaycanda milli burjuaziyanın görkəmli nümayəndələrinin yardımı və tərəqqipərvər ziyalılarının fədakarlığı sayəsində Bakıda əsas məqsədləri savadsız əhalinin kütləvi maarifləndirilməsi, elm və mədəni səviyyəsinin yüksəldilməsi olan "Bakı müsəlman xeyriyyə cəmiyyəti", "Nəşri-maarif", "Nicat", "Səfa", "Səadət" və s., eləcə də Azərbaycanın Quba, Şamaxı, Əmircan,Gəncə, Lənkəran və başqa şəhər və kəndlərində müsəlman xeyriyyə cəmiyyətləri fəaliyyətə başlamışdır.

12. XX əsrin əvvəllərində fəaliyyət göstərən savad və xeyriyyə cəmiyyətləri xalqın maarifləndirilməsi üçün xeyriyyə tədbirləri, mədəni- kütləvi tədbirlər həyata keçirir, kitabxanalar, xalq evləri açır, xeyriyyə məqsədi ilə teatr tamaşalarını səhnələşdirir, yaşlı əhalini maarifləndirmək, onlara savad öyrətmək üçün cümə məktəbləri, bazar günü məktəbləri, axşam kursları və s. təsis edirdilər.

13. XIX əsrin sonu, XX əsrin əvvəllərində Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə və Azərbaycanın digər demokratik ziyalıları, o cümlədən Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov və bir çox milli burjuaziyanın nümayəndələri xalqın maarifləndirilməsi, onun mədəni səviyyəsinin yüksəldilməsi yolunda məktəblər, kurslar, kitabxana-qiratəxanalar təsis edir, teatr tamaşaları və konsertləri təşkil edir, yerli mətbuat orqanlarının, qəzetlərin nəşri və s. kimi zəruri addımları atırdılar.

14. XIX əsrin II yarısından başlayaraq Bakı şəhəri ilə yanaşı Azərbaycanın bir sıra bölgələrində də əhalinin mədəni səviyyəsinin yüksəldilməsi, millətin maarifləndirilməsi, dünyagörüşünün formalaşdırılması və savadlı kadrların yetişdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilmiş, məktəb və savad kursları ilə yanaşı, kitabxana və qiraətxanalar, xalq evləri və digər mədəni-maarif müəssisələri də fəaliyyət göstərməyə başlamışdırlar.

15. XIX əsrin sonlarından başlayaraq Azərbaycanda fəaliyyət göstərən kitabxana və qiraətxanalar əsasən görkəmli şəxslər, maarif və mədəniyyət xadimləri, xeyriyyə cəmiyyətləri və bir sıra qeyri-hökümət təşkilatlarının maddi və mənəvi dəstəyi sayəsində təşkil edilmişdirlər.

**Dissertasiyanın məzmunu ilə bağlı iddiaçının aşağıdakı tezis və məqalələri nəşr olunmuşdur:**

1. XX əsrin əvvəllərində Azərbaycanda "Nicat" xeyriyyə cəmiyyətinin yaşlıların təhsili üzrə fəaliyyəti // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Mütərcim, 2013, №3, s.218-220.

2. Yaşlıların təhsilində Nəriman Nərimanovun rolu // "Ümumi orta təhsilin müasir problemləri" mövzusunda Beynəlxalq Elmi Konfrans. Naxçıvan, 24 noyabr 2012-ci il, s.272-273.

3. XX əsrin əvvəllərində Azərbaycanda yaşlıların təhsilində xeyriyyə cəmiyyətlərinin rolu / BSU. Elmi əsərlər (ictimai-siyasi elmlər seriyası). Bakı, 2013, №1, s.164-167.

4. M.Ə.Rəsulzadə yaşlıların təhsili haqqında // Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransı. AMİU, 2013, s.166-167.

5. Azərbaycanda yaşlı fəhlə kadrlarının hazırlanmasında kitabxana və qiraətxanaların rolu // Bədən tərbiyəsi və idman akademiyasının Elmi xəbərləri. Bakı, 2016, №1, s. 235-237

6. Azərbaycanda yaşlıların təhsili dünən, bu gün, sabah / Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu Öndər Heydər Əliyevin irsində millikultural və tolerant dəyərlər", Beynəlxalq Elmi Konfrans. Bakı, 3-5 may 2016, II hissə, s. 275-277.

7. H.Zərdabinin Azərbaycan xalqının maarifləndirilməsi uğrunda mübarizəsi // Ümummilli lider H.Əliyevin anadan olmasının 94-cü il dönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" VIII Beynəlxalq Elmi Konfrans. Bakı, 2017, s.423-425.

8. XIX əsrin sonu, XX əsrin əvvəllərində H.Z.Tağıyevin xalqın təhsil ehtiyaclarının ödənilməsinə töhfəsi // Gəncə Dövlət Universiteti. Elmi əsərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası. Gəncə, №1, 2017, s.361-364.

9. Из истории пятничных школ, созданных в Азербайджане в начале XX века // Наука, новые технологии и инновации Кыргызстана. №1, 2018 год, с. 191-194.

10. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda məktəbdənkənar təhsil işçilərinin hazırlanması və yerli pedaqoji kursların yaradılması // ADU-nun Elmi xəbərləri. Bakı, №2, 2019, s. 109-115.

11.Роль вечерних курсов в образовании взрослых в Азербайджане в конце XIX начале XX веков // IV Международная

научно-практическая конференция «Современный взгляд на науку и образования», Москва, 22 января 2020 года, с.76-78.

12. Технические курсы профессионального образование взрослых в Азербайджане в конце 19-начале 20 веков // “Проблемы и перспективы современной гуманитаристики: педагогика, методика препедавания, филология”, Андижан-Ташкент, 7 декабря, 2020 года, с.197-200.

13. Tendency of adults' education development in Azerbaijan // “International multidisciplinary scientific conference on the dialogue between science & arts, religion”, March 25, 2021 Canberra, Australia, p. 21.

Dissertasiyanın müdafiəsi 12 noyabr 2021-ci il tarixdə saat 12:00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD. 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, AZ 1000

Dissertasiya işi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana -İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 oktyabr 2021-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı: 60x84 1/16
Həcm: 51816
Tiraj: 100